# Bakı gözəlliklər şəhəridir

*Biz elə etməliyik ki, Bakı şəhərinin hər bir yeri abad olsun və vətəndaşları narahat edən problemlər aradan qaldırılsın.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

***Bakı ildən-ilə, gündən-günə gözəlləşir və müasirləşir. Müstəqilliyin geridə qalan 28 ilində onun simasına yeni-yeni bənzərsiz naxışlar vurulub. Gözəl park və xiyabanlar, geniş prospektlər, möhtəşəm və modern binalar, meydanlar və körpülər bu gün Azərbaycan paytaxtının ayrılmaz atributlarıdır. Qədimlik və müasirliyin heyrətamiz harmoniyası şəhərimizə özünəməxsus yaraşıq verir.***



Şəhərimizin bu inkişafı beynəlxalq aləmdə yüksək qiymətləndirilir. Heç təsadüfi deyildir ki, bu il 31 oktyabr -- Dünya Şəhərlər Günü münasibətilə UNESKO 48 ölkədən 66 şəhəri, o cümlədən Bakını "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edib. Paytaxtımızın adı şəbəkənin "dizayn" tematikası üzrə siyahısına salınıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul edərkən Bakı şəhərinin inkişafının daim diqqət mərkəzində olduğunu bildirib. Prezident deyib: "Mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı, doğrudan da, dünyanın ən gözəl şəhərlərindən biridir".

Bəli, Bakı bu gün parklar, xiyabanlar, qiymətli tarixi abidələr şəhəridir. Yeni istirahət zonaları vətəndaşların ixtiyarına verilir və bütün bunlar əhali tərəfindən yüksək qiymətləndirilir.

Bakıda salınan əksər yeni parkların açılışında dövlət başçısı şəxsən iştirak edir, sakinlərlə görüşür. Elə bu günlərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni "Gənclik" parkında "Təbiət naminə birləş, həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak etmişlər.

Cənab Prezident sakinlərlə görüşündə deyib: "Hesab edirəm ki, park qısa müddət ərzində tamamilə abadlaşdırılacaq və vətəndaşlar üçün burada gözəl imkanlar yaradılacaq".



Bakıda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Ölkəmizdə yeni yaşıllıqların salınmasında və mövcud yaşıllıq sahələrinin qorunmasında fondun töhfəsi olduqca böyükdür. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var.

Məhz bu diqqət və qayğının nəticəsində Bakı UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə daxil edilmişdir.

Mədəniyyət Nazirliyinin rəsmisi Vasif Eyvazzadə Bakı haqqında UNESKO-nun yeni qərarı barədə demişdir: "Paytaxt Bakı şəhərinin UNESKO-nun "Yaradıcı şəhərlər şəbəkəsi"nə qoşulması ölkəmiz üçün tarixi hadisədir. Ümumilikdə, bu şəbəkəyə 246 şəhər daxildir. "Yaradıcı şəhərlər şəbəkəsi" inkişafını yaradıcılıq - musiqi, sənət və sənətkarlıq, dizayn, kino, ədəbiyyat, rəqəmsal incəsənət və qastronomiya üzərində quran şəhərləri bir araya gətirir. Şəbəkə innovasiya və yaradıcılığı yeni şəhər strategiyasının davamlı və daha inklüziv inkişafının əsas faktoru hesab edir.

Bakının bu şəbəkəyə daxil edilməsi bizə imkan verəcək ki, digər regionlarımızı da bu sahəyə cəlb edək. Xüsusilə vurğulamaq yerinə düşər ki, burada əsas nüanslardan biri də şəhərsalmada inklüziv inkişaf faktorudur".

Onun sözlərinə görə şəhərlərin bu siyahıya salınmasında "3 T" prinsipi əsas götürülüb: "Bu prinsipə görə, talant, texnologiya və tolerantlıq əsas şərtdir. Siyahıya salınan şəhərlərin qarşısına müəyyən öhdəliklər qoyulur. Həmin tələblər nəzərə alınaraq yol xəritəsi hazırlanmalı və onun əsasında müəyyən işlər görülməlidir. Bu, Bakıda və regionlarımızda yaradıcılıq sənayesinin inkişaf etdirilməsinə, eləcə də innovativ layihələrin həyata keçirilməsində bizə kömək edəcək. Burada əsas məqsəd inklüziv şəhərsalmanın şərtlərinə əməl etməkdir. Hesab edirik ki, bu sahədə görülən işlərdə mərkəzi icra hakimiyyəti orqanları da xüsusi rol oynayacaq. Bu tarixi hadisə münasibətilə brendləşdirmə istiqamətində xüsusi iş aparılacaq. Bu da ölkəmizə turist axınının artmasına ciddi təsir göstərəcək. Hazırda Bakı şəhərinin Baş planı hazırlanır. Gələcəkdə Bakıda kreativ mərkəzin formalaşdırılması istiqamətində işlər görülür. Söz yox ki, bu layihələr paytaxtımızın yaradıcı şəhər kimi statusunun möhkəmlənməsinə təsir göstərəcək".







Müasir dövrdə yaradıcılıq sənayesinin inkişafı sürətlənir. Yaradıcı və Mədəniyyət Sənayeləri (YMS) dünya iqtisadiyyatında dinamik inkişaf edən sektorlardan biridir. YMS iqtisadiyyat, mədəniyyət, yaradıcı texnologiya sahələrini birləşdirən sənaye növüdür. Burada gənclər əsas rol oynayırlar və bu şəbəkəyə qoşulmağımızın məhz dizayn üzrə olması, həmin sahənin də inkişafına təkan verəcək. Bakının bu şəbəkəyə qoşulması tək hüquqi faktorlarla əlaqəli deyil, eyni zamanda, şəhərdə keçirilən çoxsaylı tədbirlər, qədim memarlıqla müasir memarlıq arasında harmoniyanın yaradılması ilə bağlıdır. Ölkə rəhbərliyinin bütün bu proseslərə dəstək göstərməsi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə məxsusi qayğısı sözügedən prosesə öz müsbət təsirini göstərib.

"Dövlət başçısının uzaqgörən siyasəti nəticəsində Bakının son illər mötəbər beynəlxalq tədbirlərə evsahibliyi etməsi, dünya ictimaiyyətinin diqqətinin Azərbaycana yönəlməsi – bütün bunlar şəhərimizin brendləşməsinə zəmin yaradan amillərdəndir. Yaradıcı şəhər statusu o şərtlə ki, şəhər bu statusu qoruya bilsin. Burada əsas faktor insan zəkasıdır. Bu amil həm beynəlxalq təcrübələrin əldə edilməsi, həm də 246 şəhərin birləşdiyi platformada öz sözümüzü demək imkanı yaradacaq", -- deyə V.Eyvazzadə bildirmişdir.

Qeyd edək ki, bu şəbəkəyə daxil olmağın xüsusi hüquqi normaları və proqramı mövcuddur. Bu proqrama şəhərin yalnız fiziki inkişafı deyil, həm də iqtisadi durumu, innovasiya və texnologiyalara meyilliliyi, keçirilən beynəlxalq tədbirlərin əhəmiyyəti, turistlərin şəhərə gəlmək imkanları və s. daxildir. Hər üç ildən bir yaradıcı şəhərlərin qlobal forumu keçirilir. Foruma bu istiqamətdə həyata keçirilən yeniliklərlə bağlı məlumat təqdim edilir.

**M.MÜKƏRRƏMOĞLU,**
**"Xalq qəzeti"**